# ANA DİLİM - DOĞMA DİLİM

***Fatma Kamal qızı Sofiyeva***

ARTİ, *Elmi Pedaqoji Tədqiqatlar Mərkəzinin*
*Təşkilati şöbəsinin baş mütəxəssisi*
fatma.sofiyeva@arti.edu.az, fatma.58@mail.ru

**Xülasə**

*"Ana dilim – doğma dilim"* mövzusu dilin bir millətin kimliyi, mənəvi irsi və tarixi yaddaşı ilə olan ayrılmaz bağlılığını əhatə edir. Bu mövzuda ana dilinin insanın şəxsiyyətinin formalaşmasında, dünyagörüşünün və milli mənsubiyyət hissinin inkişafında oynadığı mühüm rol ön plana çəkilir. Eyni zamanda, ana dilinin qorunması və inkişaf etdirilməsi məsələləri, onun tədrisi və gündəlik həyatda fəal istifadəsi milli dəyərlərin yaşadılması baxımından təhlil olunur. Ana dilinə sevgi və hörmətin cəmiyyətin hər bir üzvü üçün vətəndaşlıq borcu olduğu vurğulanır, gənc nəslin bu dəyərlərə bağlı yetişməsinin əhəmiyyəti qeyd edilir. Mövzu həm də qloballaşma şəraitində ana dilinin qarşılaşdığı çağırışlara və bu dilin gələcək nəsillərə ötürülməsi yollarına dair müzakirələrə yer verir.

*Açar sözlər: dil, müstəqillik, inkişaf, xalq, doğmalıq*

***Giriş***

Dil ünsiyyət vasitəsidir. Ancaq dil  yalnız ünsiyyət qurmaq üçün vasitə olmaqla kifayətlənmir, o, eyni zamanda xalqın mənəvi dəyərlərinin, mədəni irsinin, adət-ənənələrinin, yaşayış tərzinin, tarixi yaddaşının və ən başlıcası – müstəqilliyinin simvoludur.

Hazırda dünyada 7000-dən artıq dil mövcuddur, lakin dünya əhalisinin 90 faizi cəmi 70 dildə danışır. Bu dillərdən təxminən 200-ü dövlət və ya rəsmi dil statusuna malikdir. Məsələn, özbək dilində bu gün 50 milyondan artıq insan danışır və bu göstərici ilə özbək dili dünya dilləri arasında 27-ci yerdə qərarlaşır. Özbək dili sabit türk dilləri sırasına daxildir və bu qrupa türk, qazax, qırğız, azərbaycan, türkmən və uyğur dilləri də aiddir [11].

Mənim ana dilim Azərbaycan dilidir – doğma vətənimizin rəsmi dövlət dilidir. Bu dil poeziyanın dili, beşik başında səslənən şirin laylaların, könül oxşayan ecazkar mahnıların dilidir. Mənim ana dilim – dostluğun, sevginin, eyni zamanda düşmənə qarşı nifrətin ifadə vasitəsidir.

Azərbaycan dili türk dilləri ailəsinin oğuz qoluna mənsub olan qədim və zəngin bir dildir. Onun kökləri eramızdan əvvəlki dövrlərə gedib çıxır. Bu dilin ifadə imkanlarının genişliyi, axıcı və sadə quruluşu, ahəngdarlığı onu dünyanın ən gözəl və şirin dillərindən biri kimi tanıtmış və şöhrət qazandırmışdır. Ana dilimin bu gözəlliyindən söz düşəndə yadıma maraqlı bir əhvalat düşür [7].

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ana dilimizin saflığının qorunması və inkişafı istiqamətində mühüm və əhəmiyyətli işlər görmüşdür. Ulu öndər öz çıxışlarında dəfələrlə vurğulayırdı: "*Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini yüksək səviyyədə bilməlidir".*

Məlumdur ki, istənilən dilin inkişafı, zənginləşməsi və xüsusilə də dövlət dili statusu qazanması üçün onu daşıyan xalqın müstəqil dövlətinin olması əsas şərtlərdən biridir. Bu baxımdan, 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan-türk dilinin rəsmi status qazanması və geniş tətbiqi üçün əlverişli imkanlar yaratdı. Cümhuriyyət hökuməti 1918-ci il 27 iyun tarixində qəbul etdiyi qərarla Azərbaycan-türk dilini bütün ölkə ərazisində rəsmi dövlət dili elan etdi və bu istiqamətdə konkret addımlar ataraq bir sıra əməli tədbirlərin həyata keçirilməsinə başladı.

Lakin həmin dövrdə ölkədə yetərincə elmi-pedaqoji kadrların çatışmazlığı və Azərbaycan Xalq Cümhuriyyətinin çox qısa – iki illik fəaliyyət dövrü, bu dilin tam potensialla dövlət dili kimi istifadəsini tam şəkildə reallaşdırmağa imkan vermədi.

Ölkəmiz Sovetlər Birliyinin tərkibində olduğu ilk illərdə mövcud ideoloji tələblər və ictimai-siyasi sistemin xarakteri səbəbilə Azərbaycan dilinin dövlət dili kimi fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmamışdı. Lakin bu məhdudiyyətlərə baxmayaraq, həmin dövrdə milli ədəbi dilimizin və dilçilik elminin inkişafı istiqamətində atılan mühüm addımları görməməzlikdən gəlmək ədalətsizlik olardı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1969-cu ildə respublikanın rəhbərliyinə gəldiyi ilk günlərdən ana dilinə xüsusi diqqət və qayğı göstərməyə başlamışdı. 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində çıxış edən Heydər Əliyev uzun illərdən bəri formalaşmış qaydaları pozaraq rus dilində deyil, doğma Azərbaycan dilində nitq söylədi. Onun bu cəsarətli addımı milli ziyalılarımız tərəfindən böyük rəğbətlə qarşılandı, onlara mənəvi dəstək oldu və fəaliyyətlərinə stimul verdi.

Həmin dövrdə o, Azərbaycan Yazıçılar İttifaqının qurultayında da ana dilində etdiyi çıxışı ilə tədbir iştirakçılarının böyük marağını və rəğbətini qazandı. Heydər Əliyev bununla kifayətlənməyərək respublikanın tanınmış şair və yazıçıları ilə görüşlər keçirib, ana dilinin mövcud durumu və gələcək inkişafı barədə səmimi söhbətlər apararaq konkret addımlar atılmasına şərait yaratdı.

Bu istiqamətdə ən mühüm və simvolik addımlardan biri ulu öndərin təşəbbüsü, iradəsi və qətiyyətli mövqeyi ilə 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasını nəzərdə tutan maddənin daxil edilməsi oldu. O dövrdə Sovetlər Birliyində totalitar rejimin, rus millətçiliyinin və şovinizmin hökm sürdüyü şəraitdə bu cür bir məsələni gündəmə gətirib həyata keçirmək böyük siyasi cəsarət və uzaqgörənlik tələb edirdi [8].

Qeyd etmək lazımdır ki, məhz ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən, ardıcıl və məqsədyönlü dil siyasətinin nəticəsi olaraq, ötən əsrin 70-ci illərində Azərbaycan dilinin müxtəlif aspektlərdən elmi şəkildə tədqiqinə yönəlmiş bir sıra dəyərli araşdırmalar aparıldı. Bu siyasətin mühüm nəticələrindən biri kimi, 1974-cü ildə ali məktəblər üçün hazırlanmış dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyi respublikanın Dövlət mükafatına layiq görüldü və bu da ölkədə dilçilik elminin daha da inkişafı üçün əlverişli zəmin yaratdı [3, s.15].

Elə həmin dövrdə Heydər Əliyevin dövlət quruculuğu konsepsiyasının ayrılmaz tərkib hissəsi olan uğurlu dil siyasəti öz bəhrəsini başqa sahələrdə də verdi: Azərbaycan keçmiş Sovet İttifaqı məkanında və beynəlxalq elmi ictimaiyyətdə türkologiyanın əsas mərkəzlərindən biri kimi tanındı. Bunun bariz nümunəsi kimi, 1970-ci illərdə SSRİ

Elmlər Akademiyasının türk dilləri üzrə yeganə elmi nəşri olan "Sovetskaya Türkologiya" jurnalının məhz Bakıda çap olunmağa başlanması göstərilə bilər.

2001-ci ildə latın qrafikalı Azərbaycan əlifbasına keçidin tam şəkildə başa çatdırılması, ümummilli lider Heydər Əliyevin ana dilimizin inkişafı sahəsində göstərdiyi misilsiz xidmətlərdən biri kimi dəyərləndirilir. Həmin il avqustun 9-da onun imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmana əsasən hər il 1 avqust tarixində ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi rəsmi şəkildə qeyd olunur. Bu tarixi qərar dilimizin müasir mərhələdə möhkəmlənməsinə və milli kimliyimizin daha da güclənməsinə mühüm töhfə vermişdir [8].

Ümummilli lider Heydər Əliyevin böyük yardımının qazandırdığı dil siyasəti bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlham Əliyev ulu öndərin siyasi kursunu dövrün çağırışlarına uyğun olaraq yeniləyərək və yaradıcılıqla inkişaf etdirərək dil sahəsində də mühüm addımlar atıldı. Bu yük atdığı ilk addımlardan biri Azərbaycan dilində latın qrafiki ilə kütləvi nəşrlərin yaradılması ilə bağlı olmuşdur. Prezidentin 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, dövlət müstəqilliyimizin əsas rəmzlərindən biri olan ana dilinə diqqət və qayğını daha da gücləndirmək Azərbaycan ədəbiyyatının, mədəniyyətinin və elminin dəyərli nümunələri latın qrafikində kütləvi şəkildə yenidən nəşr edilmişdir.

Bundan başqa, İlham Əliyevin 27 dekabr 2004-cü il tarixində Sərəncamı ilə həm Azərbaycan, həm də dünya ədəbiyyatının görkəmli əsərlərinin əsərləri tam tirajla çap edilib ölkənin bütün kitabxana şəbəkələrinə tarix hədiyyə edildi. Eyni zamanda, Prezidentin 24 avqust 2007-ci il tarixli başqa bir Sərəncamı sahəsində dünya ədəbiyyatının tanınmış klassiklərinin əsərləri Azərbaycan dilində genişmiqyasda nəşr edilmişdir. Bu addımlar milli-mənəvilərimizin qorunması və təbliğinə əsas diqqət lazımdır [3].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2012-ci ildə Azərbaycan dili və dilçiliyi sahəsində əhəmiyyətli addımlar ataraq bu istiqamətdə iki mühüm sənəd imzalamışdır. Onlardan biri 29 may 2012-ci il tarixli Sərəncamdır və bu

sənədlə Azərbaycan dilçiliyinin əsas elmi mərkəzi sayılan AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə dövlət büdcəsindən iki milyon manat vəsait ayrılmışdır. Bu addım dövlətin Azərbaycan dilinə göstərdiyi daimi diqqət və qayğının bariz nümunəsi kimi qiymətləndirilir və ölkədə uğurlu dil siyasətinin davamlı həyata keçirilməsində mühüm əhəmiyyət daşıyır.

Digər vacib sənəd isə Prezidentin 23 may 2012-ci il tarixli Sərəncamı ilə qəbul edilmişdir və "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" adlanır. Bu sənədə əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyası yaradılmış, ədəbi dil normalarına əməl olunması və dilçiliyin inkişaf səviyyəsinin yüksəldilməsi əsas məqsədlərdən biri kimi qarşıya qoyulmuşdur [2, s.15].

Daha sonra həmin Dövlət Proqramı hazırlanaraq 9 aprel 2013-cü il tarixində Prezidentin sərəncamı ilə rəsmi şəkildə təsdiqlənmişdir. Sərəncamda vurğulandığı kimi, qloballaşma dövrü Azərbaycan dilinin zənginləşdirilməsi və istifadəsinin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin daha yüksək səviyyəyə qaldırılmasını zəruri edir. Sənəddə xüsusi olaraq qeyd olunur ki, bu Dövlət Proqramının əsas məqsədi Azərbaycan dilinin tətbiqinə və istifadəsinə göstərilən dövlət qayğısının artırılması və onun qloballaşma şəraitində müasir tələblərə uyğun şəkildə istifadəsinin təmin olunmasıdır.

Ümumilikdə, milli dövlət proqramlarımızın əsas sütunlarından biri olan Azərbaycan dilinin geniş şəkildə tətbiqi, dərin və sistemli şəkildə tədqiqi, sənaye və dövlətçilik sahəsində elmi tədqiqatların yüksək səviyyəli yüksəldilməsi prosesi real və məqsədyönlü işlərin görülməsi üçün güclü baza geniş imkanlar yaradır. Bu sənəd, eyni zamanda, dilçilik işləyən alim və bir tərəfdən ciddi məsuliyyət yükləyir, onları bu səmərəli praktiki fəaliyyətə cəlb edir və daha çox iş aparmağa strategiya sahəsində inkişaf edir [1].

Qeyd etmək lazımdır ki, bu məqsəd və məqsədin reallaşdırılması əsasında Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun qurulması lazımdır. Ölkədə dilçilik sahəsində rəhbərlik və əsas elmi mərkəz kimi fəaliyyət göstərən bu institut, Prezident İlham Əliyevin 9 aprel 2013-cü il tarixli

rəhbərliyindən irəli gələn tapşırıqları yerinə yetirmək üçün konkret konkret addımlar atıldı. Bu tədbirlər arasında ilk növbədə institut yeni şöbələrin yaradılması xüsusi qeyd edilir. İnstitutun strukturunda dəyişikliklər Azərbaycan dilçiliyinin dünya miqyasında qurulmasına, yerli dilçi elmi tədqiqatların beynəlxalq aləmdə tanınmasına, ədəbi dil tarixinin, qədim dillərin və mədəniyyətlərin tədqiqinə, azsaylı xalqların dillərinin öyrənilməsinə geniş yol açılmışdır.

Bundan əlavə, beynəlxalq standartlara uyğun milli terminoloji informasiya sistemi və Azərbaycan dilinin dövlət dili kimi informasiya təminatı yaradılması, yeni orfo, izahlı, frazeoloji və terminoloji lüğətlərin hazırlanması, müxtəlif dialekt və şivələrin müasir tələblərə uyğun olaraq öyrənilməsinə əsaslanan işlərə başlanılmışdır. Eyni zamanda, son 20-30 il ərzində dilimizə daxil olmuş yeni sözlər və terminlərin lüğəti hazırlanaraq nəşr edilmişdir.

Lakin təəssüfedici haldır ki, son dövrlərdə ana dilimizə münasibətdə bəzi narahat meyllər müşahidə olunmaqdadır. Milli məktəblərin sayı azalır, ana dili fənninə ayrılan dərs saatları həftədə 5-dən 3-ə endirilir, ali təhsil səviyyəsində olan ana dili təhsil imkanları məhdudlaşdırılır. Başqalarının bizim dilimizə yad münasibət bəsləməsi bəlkə də anlaşılandır, amma özümüzün ana dilimizə qarşı laqeyd münasibəti əsla qəbul edə bilməz.

Bu il 100 illik yubileyi qeyd olunan ölməz şairimiz Bəxtiyar Vahabzadə "**Ana dili**" şeirində belə yazır:

*Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,*
*Bu dil bir-birimizlə əhdi-peymanımızdır.*
*Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,*
*Bu dil əcdadımızın bizə miras verdiyi*
*Qiymətli xəzinədir…onu gözlərimiz tək*
*Qoruyub, nəsillərə biz də hədiyyə verək.*
*Ey öz doğma dilində danışmağı ar bilən fasonlu ədabazlar,*
*Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.*
*Bunlar qoy mənim olsun,*

*Ancaq Vətən çörəyi,*

*Sizlərə qənim olsun!*

Əgər övladlarımızın Vətənə, torpağa, xalqına, dövlətinə, ailəsinə, mənəvi dəyərlərinə bağlı, vətənpərvər və sağlam düşüncəli fərdlər kimi yetişməsini istəyirksə, onlara ilk növbədə ana dilimizi sevdirməliyik. Çünki ana dilinə sevgi – milli kimliyə, mənsubiyyətə və varlığa sevginin əsas ifadəsidir. Ana dilimiz göz bəbəyimizdir,onu qorumaq hər birimizin vətəndaşlıq borcudur.

*İllər ötdü,yaşa doldum,*

*Anladım ki, ana dilim*

*Ürəyimdən çıxmaz mənim,*

*Doğransam da dilim-dilim…* (Xəlil Rza Ulutürk).

**Nəticə.** Beləliklə, yuxarıda qeyd olunan faktlar müstəqil Azərbaycan Respublikasında rəsmi dövlət dili Azərbaycan dilinə - dogma ana dilimizə dövlət səviyyəsində yüksək diqqət və xüsusi qayğının göstərildiyini aydın şəkildə nümayiş etdirir və Ümummilli liderimiz Heydər Əliyevin "*Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən ən başlıca amillərdəndir"* fikri əyani təsdiqidir.

Azərbaycan Respublikasının Kontitusiyasında ana dilimiz haqqında olan maddəyə nəzər salaq: "**M a d d ə 2 1 . Dövlət dili. I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.** Hər bir dilin yaşaması, qorunması və gələcək nəsillərə ötürülməsi vəzifə olaraq birbaşa şəkildə həmin dili daşıyan xalqın üzərinə düşür. Bu mühüm reallığı nəzərə alaraq, hər bir Azərbaycan vətəndaşı milli kimliyimizin ayrılmaz parçası və qürur mənbəyi olan dövlət dilinə dərin sevgi ilə yanaşmalı, onu təşviq etməli və bu dildə danışmaqdan qürur duymalıdır" [9].

Gəlin, dilimizi qoruyaq, milli kimliyimizi qoruyaq və dogma dilimizə - ana dilimizə olan sevgimizi gənc nəsillərə layiqincə ötürə bilək.

## ƏDƏBİYYAT

1. Əliyev, H. (2004). Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr.

2. Quliyev, T. (2019). Azərbaycan dili müstəqil dövlətin rəmzi kimi. Azərbaycan dili və ədəbiyyatı, 4(56), s.12–18.
3. Məmmədova, S. (2020). Qloballaşma və milli dil siyasət: çağırışlar və reallıqlar. Dil və Cəmiyyət, 1(7), s.25–31.
4. Crystal, D. (2003). Language Death. Cambridge: Cambridge University Press.
5. Fishman, J. A. (1991). Reversing Language Shift: Theoretical and Empirical Foundations of Assistance to Threatened Languages. Clevedon: Multilingual Matters.
6. Grenoble, L. A., & Whaley, L. J. (2006). Saving Languages: An Introduction to Language Revitalization. Cambridge: Cambridge University Press.
7. https://www.testbook.az/essay/show/155/menim-ana-dilim
8. https://portal.azertag.az/az/node/400
9. https://interpress.ge/read/50378
10. https://science.gov.az/az/news/open/9832
11. https://www.uzcaa.uz/ru/news/rodnoj-jazyk-gordost-i-slava-moja
12. Xəlil Rza. Seçilmiş əsərləri (iki cilddə). I cild. Bakı, "Şərq-Qərb", 2005, 296s.
13. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri (iki cilddə). Bakı, "Öndər nəşriyyat", 2004, 328s.
14.Azərbaycan Respublikasının Konctitusiyası,1995

## MY MOTHER TONGUE IS MY NATIVE LANGUAGE

**Abstract**

The topic *"My Mother Tongue – My Native Language"* highlights the deep connection between language and a nation's identity, spiritual heritage, and historical memory. It brings attention to the essential role of the mother tongue in shaping individual identity, worldview, and the sense of national belonging. The issue also addresses the preservation and development of the mother tongue, analyzing its teaching and effective use in daily life as a means of sustaining national values. The text emphasizes that love for the mother tongue is a civic duty for every citizen and warns of the danger of younger generations growing up disconnected from these values. Furthermore, the topic explores the challenges posed by globalization to the

survival of the mother tongue and discusses possible ways to ensure its transmission to future generations.

***Keywords:*** *language, independence, development, nation, belonging*